ᲨᲔᲤᲐᲡᲔᲑᲘᲡᲐ ᲓᲐ ᲒᲐᲛᲝᲪᲓᲔᲑᲘᲡ
ᲔᲠᲝᲕᲜᲣᲚᲘ ᲪᲔᲜᲢᲠᲘ

ᲔᲠᲗᲘᲐᲜᲘ ᲔᲠᲝᲕᲜᲣᲚᲘ ᲒᲐᲛᲝᲪᲓᲔᲑᲘ

iyul, 2016

# Ümumi qabiliyyət testi

## Təlimat

Qarşınızdakı imtahan testinin elektron bukletidir.

Test iki – verbal və riyaziyyat – hissədən ibarətdir.

Hər hissəsi 40 tapşırıqdan ibarətdir. Hər tapşırığın ehtimal olunan dörd və ya beş cavabı vardır. Onlardan ancaq biri düzgündür.

**Testin hər hissəsini işləmək üçün sizə 1 saat 35 dəqiqə vaxt verilir.**

Hər bir tapşırığın təlimatını diqqətlə oxuyun, tapşırığı yerinə yetirmək üçün nə tələb olunduğunu yaxşı düşünün və sonra savabı seçin və yazın.

**Testin maksimal xalı – 80-dır.**

**Uğurlar arzulayırıq!**

# Verbal hissə

# Analogiyalar

*Bu cür tapşırıqlarda tünd şriftlə göstərilmiş iki söz (başlanğıc cütlük) verilmişdir. Onların mənaları arasında müəyyən nisbət vardır. Onların ətrafında verilmiş sözlərdən ehtimal olunan cavablardan bir variantı elə uyğunlaşdırın ki, sözlərin mənaları arasındakı nisbət başlanğıc cütlükdə mövcud olan nisbətə uyğun gəlsin (analoji olsun).*

**1. Standarlaşdırılmış : standart** **Ənənəvi :**

(a) Adət

(b) Yenilik

(c) Tarix

(ç) Mərasim

(d) Qalıq

**2. Alaq otu : bostan** **Virus :**

(a) Vaksina

(b) İnfeksiya

(c) Əlamət

(ç) Preparat

(d) Orqanizm

**3. Repertuar : çeşid**

**Kitabın mündərəcatı :**

(a) Sxem

(b) Menyü

(c) Resept

(ç) Cədvəl

(d) Layihə

**4. Şərh edir : anlaşılan                                    yaradır:**

(a) Təkrarlanmış

(b) Sitat gətirilmiş

(c) İlhamlı

(ç) Orijinal

(d) Məlumatlı

**5. Gizlədilmiş : axtarış** **günahlandırılmış :**

(a) İttiham etmək

(b) Etiraf etmək

(c) İfşa etmək

(ç) Cəzalandırmaq

(d) Müdafiə etmək

## Cümlələrin tamamlanması

*Elə cümlələr verilmişdir ki, onlarda bir neçə söz buraxılmışdır. Buraxılmış sözlər cümlədə xətlərlə göstərilmişdir. Bir xətdə bəzən bir söz, bəzən isə bir neçə söz nəzərdə tutulur.*

*Ehtimal olunan cavabların hər variantı sözlər qrupunu əhatə edir, onun hissələri bir-birindən aşağı əyilmiş xətlərlə (/) müəyyən edilmişdir.Cavabın elə variantını seçin ki, onun hər hissəsinin ardıcıllıqla düzülməsi müvafiq buraxılmış yerlərdə fikir etibarı ilə düzgün cümlə versin.*

**6.** Körpələr onların tələbatlarına əməl olunmasına qayğı göstərənlərə bağlanırlar. ------ qida qəbul edilməsi analar və uşaqlar arasında yaxın münasibətlər yaradılmasının ------ amilidir. ------ , bağlılıq yalnız aclıq hissinin ödənilməsindən asılıdır. Körpə uşaqlar bağlılığı ------, onları ------ hallarda yedizdirirlər.

(a) Məsələn, / mühüm / Buna baxmayaraq, deyə bilmərik ki / ailənin o üzvlərinə də göstərirlər ki / nadir

(b) Ancaq / az əhəmiyyətli / Müvafiq olaraq, deyə bilmərik ki / ailənin o üzvlərinə qarşı göstərmirlər ki / nadir

(c) Məsələn, / mühüm / Buna görə də demək olar ki / ailənin o üzvlərinə qarşı da göstərmirlər ki / əksər

(ç) Ancaq / az əhəmiyyətli / Müvafiq olaraq, demək olar ki / ailənin o üzvlərinə də göstərirlər ki / əksər

**7.** Kompüter şəbəkəsindən istifadə etməklə yüksək və alçaq iqtisadi statusu olan adamlar arasında məsafənin azaldılması ------ . O ------ informasiya məkanı yaradır. ------ o təbəqələr arasında mövcud məsafəni ------ bilər. Bu keyfiyyətli informasiya alınmasına müəyyən edilmiş yüksək ödənc yaradır. Müvafiq olaraq, informasiyalılıq baxımından varlı və yoxsul təbəqə arasında ------ .

(a) daha da çətinləşir / onlar üçün qeyri-bərabər əlçatan / Buna baxmayaraq ki, / azalda da / fərq artar

(b) daha da asanlaşır / hər iki təbəqə üçün ümumi / Ancaq / artır da / fərqin azalması mümkündür

(c) qeyri-realdır / qeyri-bərabər əlçatan / Eyni zamanda / azalda da / fərq də azalar

(ç) mümkün olur / hər iki təbəqə üçün ümumi / Eyni zamanda / artıra da / fərqin artması mümkündür

**8.** Bitkilərin və heyvanların daxil edildiyi biosfera təbiətin cansız hissəsi ilə müqayisədə ------ o təbiətin cansız hissəsinə böyük təsir ------ . Bitkilərin təsiri ------ , çünki onların miqdarı ------ .

(a) o qədər də az deyildir. Buna baxmayaraq, / göstərə bilmir / xüsusilə əhəmiyyətlidir / heyvanlardan azdır

(b) çox kiçikdir. Buna baxmayaraq, / göstərir / xüsusilə əhəmiyyətlidir / heyvanlardan artıqdır

(c) daha kiçikdir. Məhz buna görə də / göstərə bilmir / daha əhəmiyyətsizdir / heyvanlardan artıqdır

(ç) o qədər də az deyildir. Məhz buna görə də / göstərir / daha da əhəmiyyətsizdir / heyvanlardan geri qalmır

**9.** Sosial-təkamülçülər sübut edirlər ki, sosial-təkamül bioloji ------ onların arasında ------ görürlər: fərdin uyğunlaşması vacib olan bioloji təkamül ------ cəmiyyətin uyğunlaşması nəzərdə tutulan sosial təkamül ------ .

(a) təkamülün eynidir, ancaq / fərqlər də / ləng və təsadüfidir, ancaq / isə planlaşdırılmamış halda olduğu kimi müəyyən edilmiş plan üzrə də irəli gəlir və onun nəticələri də nisbətən sürətlidir

(b) təkamüldən açıq-aşkar fərqlənir, ancaq / analogiyanı da / ləng və təsadüfidir, məhz bu cür / isə planlaşdırılmamış halda olduğu kimi müəyyən edilmiş plan üzrə də irəli gəlir

(c) təkamüldən o qədər də fərqlənmir, buna görə də / çoxlu pararlel / buna bənzər fərdləri deyil, bütövlükdə cəmiyyətləri əhatə edir, / struktur dəyişikliklər və seçim prosesi halında baş verir

(ç) təkamülün analogiyası deyildir və / mühüm fərq / mədəni meyllərin dəyişkənliyinə səbəb olur, bu zaman / fərdin ətraf mühitlə adaptasiya halında baş verir və əvvəlcədən müəyyən edilmiş xarakteri vardır

**10**. Yeni qayda-qanunun təsis edilməsindən daha çətin, uğurlar baxımından daha şübhəli və təhlükəli iş yoxdur: ------ yeniliyi tətbiq edənin ------ ; ancaq bəziləri üçün, əksinə, ------ , onu cəsarətsizliklə müdafiə edirlər.

(a) yeni qayda-qanun əlverişli olar, çünki hamı / tərəfini saxlayar / köhnə nisbətən az əlverişli idi

(b) yeni qayda-qanun əlverişsiz olar, çünki hamı / düşməni olur / köhnə daha əlverişli idi

(c) köhnə əlverişsiz idi, çünki hamı / tərəfini saxlayar / yenilik nisbətən az əlverişli olar

(ç) köhnə qayda-qanunu sevənlər / düşməni olur / yenilik daha əlverişli olar

## Məntiq

*Bu cür tapşırıqlarda ilkin göstəricilər və çıxarılmalı nəticələr baxımından bir-birindən fərqlənir. Buna görə də hər tapşırıqda olan suala xüsusi diqqət yetirin və verilən variantlardan müvafiq cavabı seçin.*

*Göstəricilərin çertyoj yaxud diaqram formasında təsviri bəzi suallara cavab verilməsini asanlaşdırar.*

**11.** Verilir:

- Bu yolda təhlükəsizlik kəməri olmadan gəzməyə icazə verilmişdir.

*Aşağıda sadalananlardan hansı verilən müddəalardan* ***irəli gəlir****?*

Bu yolda:

(a) Təhlükəsizlik kəməri ilə gəzməyə icazə verilmir.

(b) Təhlükəsizlik kəməri ilə gəzmək qadağandır.

(c) Təhlükəsizlik kəməri ilə gəzmək vacib deyildir.

(ç) Təhlükəsizlik kəməri olmadan gəzmək vacibdir.

(d) Təhlükəsizlik kəməri olmadan gəzmək vacib deyildir.

**12.** Məlumdur ki, itlər insanın emosiyalarını tanıya bilirlər – onlar adamın acıqlandığını, sevindiyini yaxud kefsiz olduğunu seçir və müvafiq reaksiya verirlər. Bununla yanaşı, bəzi tədqiqatçının fikrincə, **itlərin yalnız sifətin hərəkəti üzrə də insanın emosional vəziyyətini bilmək qabiliyyəti vardır**.

*Aşağıda sadalananlardan hansı şərait ifadə olunan ehtimalı **daha çox təsdiqləyir**?*

(a) Sosiallığın yüksək dərəcəsinin səciyyələndirdiyi bütün növlərdə öz növünün nümayəndələrinin emosiyalarının tanımaq qabiliyyəti yaxşı inkişaf etmişdir – it də belələrinin sırasına daxildir.

(b) Məlum olduğu kimi, itlərin görmə qabiliyyəti kifayət qədər pisdir, onlar həm bir-biri ilə, həm də adamlarla münasibətdə əsasən iybilmədən və eşitmə qabiliyyətindən istifadə edirlər.

(c) Eksperimentlər göstərmişdir ki, itlərin insanların sifətini tanımaq üzrə anadangəlmə qabiliyyəti vardır – onlar uzaq məsafədən yalnız sifəti görməklə zahirən bir-birinə çox oxşayan adamları fərqləndirirlər.

(ç) İtlər tərəfindən adamların emosiyalarını tanimaq qabiliyyətinin tədqiqi məqsədi güdülən eksperimentlər yalnız bir növ itlər üzərində aparılmışdır.

(d) Eksperimentlərdən birində itlərin bir qrupunu adamların emosiyalarını kompüterin ekranına baxmaqla tanımağı, digər qrupuna isə adamı bilavasitə görməklə tanımağı öyrədirdilər. İkinci qrup daha uğurlu çıxdı.

**13.** Mehmanxananın dəhlizinin hər iki tərəfində üç-üç otaq bir-birinə qarşı durur. Dəhlizin başlanğıcından otaqlar saat əqrəbinin hərəkəti istiqamətində 1-dən 6-dək nömrələnmişdir. Bu otaqlarda altı qonaq qalmışdır: Kaxa, Sandro, Maka, İa, Nika və Anna (bu ardıcıllıq zəruri deyildir). Verilir:




- Kaxanın və Makanın otaqları diaqonal surətdə yerləşir (bir-birindən çox aralıdır).
- Sandronun və İanın otaqları dəhlizin bir tərəfindədir.

*Əgər bu şərtlərə əməl edilərsə, aşağıda sadalananlardan otağın nömrələrinin hansı bölgüsü mümkündür?*

| | **1** | **2** | **3** | **4** | **5** | **6** |
|---|---|---|---|---|---|---|
| (a) | Anna | Nika | Maka | Kaxa | İa | Sandro |
| (b) | Maka | Nika | Sandro | Kaxa | İa | Anna |
| (c) | Kaxa | İa | Anna | Maka | Nika | Sandro |
| (ç) | İa | Sandro | Kaxa | Maka | Anna | Nika |
| (d) | Sandro | İa | Kaxa | Anna | Nika | Maka |

**14.** Verilir:

- Yarpaqlı bitkilər vardır.
- Bütün yarpaqlı bitkilər yaşıl bitkilərə daxildir.
- Oksigen bütün yaşıl bitkilər üçün zəruridir .

*Əgər verilən müddəalar düzgündürsə, aşağıda sadalananlardan hansı* ***səhv ola bilər****?*

(a) Oksigen bütün yarpaqlı bitkilər üçün zəruridir.

(b) Oksigenin zəruri olduğu yarpaqlı bitkilər vardır.

(c) Oksigenin zəruri olduğu qeyri-yarpaqlı bitkilər vardır.

(ç) Oksigenin zəruri olmadığı bütün bitkilər yarpaqsızdır.

(d) Oksigenin zəruri olmadığı yarpaqlı bitkilər yoxdur.

## Oxunmuş mətnin düşünülməsi

*Mətni diqqətlə oxuyun və düşünün. Hər sualın ehtimal olunan cavablarından verilən mətnə görə düzgün variantı seçin.*

*Bu və ya digər sualla tanış olduqdan sonra suala cavab vermək üçün mətnə qayıtmaq, müvafiq parçanı yenidən oxumaq və suala keçmək lazım gələ bilər. Bunu mətnin eləcə də hər sualın sonunda verilmiş müvafiq qeydi "basmaqla" asanlaşdıra bilərsiniz.*

i Gürcüstanda məhsulun saxtalaşdırılmasını əsasən zirzəmilərdə quraşdırılmış “müəssisələrdə” həyata keçirirlər, burada xarici brenddən olan parfümeriya yaxud ərzaq məhsulları hazırlayırlar. Bu cür zirzəmilərin sayı get-gedə azalır və tendensiya elədir ki, onlar gec-tez yoxa çıxırlar. Ancaq Tbilisidə yenə də yoxa çıxmaq təhlükəsi olmayan bir yaxud iki “zirzəmi” yenə də mövcuddur. Burada real yaxud qeyri-real insanların və ədəbi personajların həyatını “saxtalaşdırırlar”. Bütün bunlar səhnədə, təxminən 100 tamaşaçı qarşısında baş verir.

ii Ötən əsrin 90-cı illərinin orta dövründə, vətəndaş müharibəsi başa çatdıqdan sonra ağır iqtisadi vəziyyət yaranmışdır, adamların teatra getməyə vaxtı yoxdur, ancaq nəsə dəyişməlidir. Gürcü səhnə incəsənətində yeni söz – “teatr zirzəmisi” yaranmışdır. Yaradıcılıq varlı salonlardan adi zirzəmiyə keçir. Teatr “bazarında” yeni məhsul tətbiq olunur, daha doğrusu, köhnənin redizaynı baş verir yaxud istehlakçı üçün onun məhsulvermə konsepsiyası dəyişir: tamaşaçı kənar aləmlə təzadı hiss olunmayan teatra gedir.

Başlanğıc mərhələdə həm maliyyə, həm də yaradıcılıq iii baxımından tənəzzül riski böyük idi. Ancaq məşhur artistlərin iştirak etdikləri ilk tamaşa uğurlar qazandı. Rejissorlar və artistlər üçün burada daim iş şəraiti təkmilləşdirilir. Onlar üçün teatrda azad məkan yaradılmışdır. Artistləri, pyesi və s. özü seçən hər hansı peşəkar rejissor tamaşa qoya bilər. Bundan əlavə daha bir gün ayrılmışdır – bazar ertəsi, bu zaman burada səhnə yeni başlayan rejissorlara verilir. Tam azadlıq yuxarıda sadalanan aspektlərlə əlaqədar teatr zirzəmisinin başlıca prinsipidir. Maliyyə risklərinin bir növ sığortası da vardır: əgər tamaşa üç dəfə uğursuzluğa uğrasa yaxud kifayət qədər tamaşaçı onda iştirak etməsə, o səhnədən çıxarılır. Həmçinin, mümkün qədər daha çox tamaşa qoyulması vacibdir. Teatrın auditoriyası əsasən 40 yaşınadək adamlardan ibarətdir. Onların əsas hissəsi isə 16-25 yaşlı tamaşaçılardır. Gənclər eyni tamaşada dəfələrlə iştirak edir,

**Suallara keçid:** 15 16 17 18 19 20

artistlərin mətnlərini əzbərdən bilirlər ki, bu da onları səhnə və artistlərlə daha çox yaxınlaşdırır. Zirzəmi gənc nəsildə teatra maraq oyatmağa nail oldu ki, bu da ona əlavə sosial yük verir.

iv Hər hansı təşkilat üçün rəqabət ən güclü stimullardan biridir. Zirzəminin də rəqibi vardır – Rustaveli teatrından başqa qalan bütün teatrlar. Zirzəmidə fəaliyyət göstərənlərin fikrincə, gürcü səhnə incəsənətində Rustaveli teatrının tamamilə başqa yükü vardır. Buna görə də zirzəmi teatrında var qüvvə ilə işləyirlər ki, tamaşaçılara həmişə rəqabət qabiliyyətli məhsul versinlər. Burada ildə bir neçə tamaşa göstərilir. Genişlənməyə ehtiyac yaranması zirzəminin uğurlar qazanmasının ən yaxşı indikatorudur. Daha bir zirzəmi – Vake zirzəmisi meydana çıxdı.

Zirzəminin müxtəlif təşkilat və şirkətlərlə işgüzar əlaqələri v
vardır ki, bu da hər iki tərəfin mənafelərinə xidmət edir. Teatr onlardan, əsasən maliyyə dəstəyi alır, bunun əvəzində şirkətlərə nüfuzlu incəsənət ocaqlarını dəstəkləmək və öz nüfuzlarını yüksəltmək imkanı verilir. Zirzəmidə düşünürlər ki, hər bir təşkilat öz nüfuzunu cəmiyyət üçün faydalı işlə yaxşılaşdırmalıdır ki, bu da özünü əksər hallarda xeyriyyəçilikdə əks etdirir. Zirzəmi də xeyriyyəçilik tamaşaları göstərir.

Gələcəkdə nə olacağı teatrın bir təşkilat kimi nə kimi vi
strategiyasını və inkişaf yolunu seçəcəyindən asılıdır. Bir şey aydındır: həmişə səhnə, onda oynayan artistlər, diqqətli tamaşaçılar və rejissorlar səhnə arxasında olacaqlar.

**Suallara keçid:** 15 16 17 18 19 20

**15.** Mətnin I abzasında zirzəmidə fəaliyyət göstərən iki tipli təşkilat nə məqsədlə təsvir olunmuşdur?

Bu aşağıdakılardır:

(a) Bəzi təşkilatın nə üçün yoxa çıxmasının, bəzisinin isə əksinə, yoxa çıxmaq təhlükəsinin olmadığını izah etməyə cəhd göstərilməsi.

(b) Zirzəmidə fəaliyyət göstərən təşkilatlar arasında oxucunun diqqətinin oxşarlığına və fərqlənməsinə yönəltməyə cəhd göstərilməsi.

(c) Məhsulun müxtəlif yollarla saxtalaşdırılmasının mümkün olduğunu qarşıdurmanın bir növ üsulu kimi bizə göstərsin.

(ç) Oxucunun diqqətini cəlb etmək və marağını artırmaq üçün bir növ bədii üsuldur.

Mətinin I səhifəsinə qayıdış

Mətnin II səhifəsinə qayıdış

**16.** “Teatr zirzəmisini” təsis edənlərə tamaşaçı üçün yeni məhsul verilməsini nə diktə etdi?

(a) Ölkədə mövcud olan vəziyyət və ənənəvi teatr üçün adi mühitin olmaması.

(b) Nəsə orijinal bir şey yaratmaq və bununla cəmiyyətin diqqətini səhnə incəsənətinə yönəltmək arzusu.

(c) Ölkədə mövcud olan ağır iqtisadi vəziyyətdə dəyişikliklər edilməsinin vacib olduğunun dərk edilməsi.

(ç) Ölkədə yaranmış vəziyyətlə əlaqədar teatr üçün müvafiq bina tapılmasının çətinliyi.

Mətinin  I səhifəsinə qayıdış

Mətnin II səhifəsinə qayıdış

**17.** Aşağıda teatrın populyarlaşdırılmasına imkan yaradan amillər göstərilmişdir. Mətndə onlardan hansı xatırlanmır?

(a) Zirzəmi teatrının tamaşalarında məşhur artistlərin iştirakı

(b) Auditoriyanı cəlb etmək üçün həyata keçirilən reklam tədbirləri

(c) Peşəkar rejissorlar tərəfindən tamaşalar qoyulması

(ç) Tamaşaçıya yeni-yeni tamaşalar təklif edilməsi

Mətinin  I səhifəsinə qayıdış

Mətnin II səhifəsinə qayıdış

**18.** “Zirzəmi teatrının” sosial istiqaməti mətnin hansı abzasında göstərilmişdir?

(a) I, II və IV abzaslarda

(b) II, III və V abzaslarda

(c) I və V abzaslarda

(ç) III və IV abzaslarda

Mətinin I səhifəsinə qayıdış

Mətnin II səhifəsinə qayıdış

**19.** (I) fakt və (II) onu izah edən şərait cümlələrin hansı cütlüyündə göstərilmişdir?

(a) I. Rəqabət təşkilat üçün güclü stimuldur;
II. Burada var qüvvə ilə işləyirlər.

(b) I. Tamaşaçıya rəqabət qabiliyyətli “məhsul” təklif etməlidirlər;
II. Teatr auditoriyaya ildə bir neçə tamaşa təklif edir.

(c) I. Rustaveli teatrından başqa hər bir teatr zirzəminin rəqibidir;
II. Gürcü səhnə incəsənətində Rustaveli teatrının tamamilə başqa yükü vardır.

(ç) I. Teatrın genişləndirilməsi zərurəti “zirzəminin” uğurlar qazanmasının ən yaxşı indikatorudur;
II. “Vake zirzəmisi” meydana çıxdı.

Mətinin  I səhifəsinə qayıdış

Mətnin II səhifəsinə qayıdış

**20.** Mətnin əsas təyinatı nədir?

(a) Teatrlardan birinin yaradılması tarixi ilə tanış etmək və bir təşkilat kimi onun uğurlarına səbəb olan bəzi amillər.

(b) Teatrlardan birinin nümunəsi ilə Gürcüstanda fəaliyyət göstərən hər hansı təşkilat üçün mühüm şəraiti müzakirə etmək.

(c) Teatrın yaradıcılarının hansı inkişaf yolu seçmələrinə baxmayaraq, teatrı və teatr həyatını heç nəyin hədələmədiyi fikrini əsaslandırsın.

(ç) Səhnə incəsənətində yeni söz deməyin nə kimi çətinliklərlə əlaqədar olduğunu bizə göstərsin.

Mətinin  I səhifəsinə qayıdış

Mətnin II səhifəsinə qayıdış

## Analogiyalar

*Bu cür tapşırıqlarda tünd şriftlə göstərilmiş iki söz (başlanğıc hissə) verilmişdir. Bu nisbətin necə olduğunu müəyyən edin.*

*Ehtimal olunan cavabların hər variantında həmçinin mənaca bir-biri ilə əlaqədar olan sözlər cütlüyü verilmişdir. Onlardan sözlərin mənaları arasındakı nisbət başlanğıc cütlükdə mövcud olan nisbətə uyğundur (analojidir). Cavabı seçərkən cütlüklərdəki sözlərin ardıcıllığını nəzərə alın.*

**21. Film çəkildi : kinokamera**

(a) Orkestrə rəhbərlik etdi : partitura

(b) Fokusu düzəltdi : fotoaparat

(c) Divarı bəzədi : fırça

(ç) Royal quraşdırıldı : klaviş

(d) Binaya üzlük çəkdi : daş

**22. Tabulaşdırılmış : icazə verilmiş**

(a) Maskalanmış : örtülmüş

(b) Kinayə : ikimənalı

(c) Metaforik : bədii

(ç) Şifrələnmiş : aşkar edilmiş

(d) Hiperbololaşdırılmış : şişirdilmiş

**23. Çən : hovuz**

(a) Xana : hüceyrə

(b) Kitabça : kitab

(c) Daş : Mağara

(ç) Başlanğıc : başlıq

(d) Sahə : kəsik

**24. Ehtimal : imkan**

(a) Ekoloji sistem : növ

(b) Cədvəl : sxematiklik

(c) Süjet : lakoniklik

(ç) Simvol : şərtilik

(d) Hadisə : miqyaslılıq

**25. Bərabərlik işarəsi : tənlik**

(a) Nöqtə : koordinatlar

(b) Günəş : günəş sistemi

(c) Çay : delta

(ç) Cıdır : maneə

(d) Tağ : salon

**26. Hay-küy : səs salmış**

(a) Mərasim : sirr

(b) Təlim : utopik

(c) İnflyasiya : dövri

(ç) Metod : kompleks

(d) Pandemiya : total

**<u>27. Serpantin : ziqzaqvari</u>**

(a) Burulğan : Qıfvari

(b) Yol : üfüqi

(c) Ekvator : paralel halda

(ç) Pilləkan : İyerarxiya

(d) Körpü : tağvari

## Cümlələrin doldurulması

*Elə cümlələr verilmişdir ki, onlarda bir neçə söz buraxılmışdır. Buraxılmış sözlər cümlədə xətlərlə göstərilmişdir. Bir xətdə bəzən bir söz, bəzən isə bir neçə söz nəzərdə tutulur.*

*Ehtimal olunan cavabların hər variantı sözlər qrupunu əhatə edir, onun hissələri bir-birindən aşağı əyilmiş xətlərlə (/) müəyyən edilmişdir.Cavabın elə variantını seçin ki, onun hər hissəsinin ardıcıllıqla düzülməsi müvafiq buraxılmış yerlərdə fikir etibarı ilə düzgün cümlə versin.*

**28.** Bəzi alimlərin fikrincə, tarixin, praktiki səmərəsindən müstəqil olaraq, əsl alimlik statusunu ------ və ------ ki, ------ əvəzinə ------ onların arasındakı əlaqəni aydınlaşdırır.

(a) tələb etmək hüququ vardır / ancaq o şərtlə / bir-biri ilə əlaqəsi olmayan faktların sadalanması / onların təsnifatını həyata keçirir və

(b) tələb etmək hüququ yoxdur / çünki, aydındır / bir-biri ilə əlaqəsi olan faktların / onları təsnifləşdirməyə cəhd göstərir və

(c) verməməliyik / əgər əmin olsaq / bir baxışdan bir-biri ilə əlaqədar olan faktların təsnifatının / o onlara izah etməyə cəhd göstərir və

(ç) verə bilərik / onun xüsusiyyətinə baxmayaraq / bir baxışdan bir-biri ilə əlaqədar olmayan faktların təsnifatının və izahının / o

**29.** ------ təbiətin tədqiqi nəticəsində ------ , həmçinin, texnologiyanın tərəqqisi, ------ ki, bu da ------ .

(a) Təəccüblü deyildir ki, / insanların ətraf mühitə vurduğu zərər / bizi ekoloji fəlakətə doğru yaxınlaşdırır / bəşəriyyətə xeyirxahlıq gətirəcəkdir

(b) Təzadlıdır, ancaq / insanlara verilən bütün xeyirxahlıqlar / hansı ki, guya insanın həyatını yüngülləşdirməyə yönəldilmişdir / bəşəriyyəti məhvə apara bilər

(c) Təəccüblü deyildir ki, / insanlara verilən bütün xeyirxahlıqlar / bizi ekoloji fəlakətə doğru yaxınlaşdırır / bəşəriyyətə xeyirxahlıq gətirəcəkdir

(ç) Təzadlıdır, ancaq / insanların ətraf mühitə vurduğu zərər / hansı ki, guya insanın həyatını yüngülləşdirməyə yönəldilmişdir / bəşəriyyəti məhvə apara bilər

**30.** Məsləhət verməyin əsl incəliyi odur ki, başqasına səmimiyyətlə verdiyin məsləhətdən sonra nəzərə ------ qarşı ------ və təkidli tələblə yaxud məcburiyyətlə ------ .

(a) alıb və istəyi olmasına / sənin ona verdiyin məsləhətə necə və nə vaxt diqqət yetirdiyinə fikir verməyəsən / insanları sənin məsləhətin üzrə hərəkət etməyə təhrik edəsən

(b) alıb-almamaq istəyinə müvafiq olaraq, ona / soyuqqanlı qalmayasan / insanları sənin məsləhətin üzrə hərəkət etməyə təhrik edəsən

(c) alıb və istəyi olmasına / sənin ona verdiyin məsləhətə necə və nə vaxt diqqət yetirdiyinə fikir verəsən / insanlar "öz yollarını özləri müəyyən etsinlər"

(ç) alıb-almamaq istəyinə / soyuqqanlı qalasan / insanları "düzgün yola çıxarasan"

## Məntiq

*Bu cür tapşırıqlarda ilkin göstəricilər və çıxarılmalı nəticələr baxımından bir-birindən fərqlənir. Buna görə də hər tapşırıqda olan suala xüsusi diqqət yetirin və verilən variantlardan müvafiq cavabı seçin.*

*Göstəricilərin çertyoj yaxud diaqram formasında təsviri bəzi suallara cavab verilməsini asanlaşdırar.*

**31.** Muzey Van-Qoqun, Qoqenin, Sezanın və Modiliyanın hərəsinin bir rəsmini aldı. Onlardan biri quaşla, biri akvarellə, biri pastellə, biri isə yağlı boya ilə çəkilmişdir. Məlumdur ki:

- Quaşla çəkilmiş rəsminə akvarellə çəkilmiş rəsmdən çox, lakin yağlı boya ilə çəklilmiş rəsmdən az pul verilmişdir.
- Van-Qoqun rəsminə ən çox pul, Qoqenin rəsminə isə hamısından az pul verilmişdir.

*Aşağıda rəssamların rəsmləri və istifadə olunmuş material arasında uyğunluğun müxtəlif variantları verilmişdir. Şərtə görə onlardan hansı* ***<u>mümkündür</u>****?*

| | **Van-Qoqun rəsmi** | **Qoqenin rəsmi** | **Sezanın rəsmi** | **Modilianın rəsmi** |
|---|---|---|---|---|
| (a) | Akvarel | Pastel | Yağlı boya | Quaş |
| (b) | Yağlı boya | Quaş | Pastel | Akvarel |
| (c) | Quaş | Akvarel | Yağlı boya | Pastel |
| (ç) | Pastel | Quaş | Akvarel | Yağlı boya |
| (d) | Pastel | Akvarel | Quaş | Yağlı boya |

**32.** Fillər bir-biri ilə əlaqə üçün səs siqnallarından fəal istifadə edirlər. Bu siqnalların ən mühüm funksiyalarından biri təhlükə haqqında fillərə xəbərdarlıq etməkdir. Tədqiqatçıların bir qrupu fillərə xəbərdarlıq siqnallarının yazısının təhlili və qarşılıqlı müqayisəsi əsasında ehtimal etmişdir ki, **fillər təhlükənin tipi və ciddiliyinin müvafiq spesifik səs siqnallarını bir-birlərinə çatdırırlar**.

*Aşağıda sadalananlardan hansı şərait bu ehtimalı ən çox* ***şübhə altında qoymuşdur****?*

(a) Yazıların təhlili göstərmişdir ki, arılar görünərkən fillərin xəbərdarlıq çağırışı və adamlar görünərkən onların çağırışı akustika baxımından bir-birindən fərqlənir.

(b) Fillər müxtəlif tipli təhlükəyə müxtəlif cür reaksiya verirlər: qəzəblənmiş bal arılarının göründüyü təqdirdə onlar başlarını tərpətməyə başlayır, adam görünəndə isə qaçırlar.

(c) Eksperimentdə fillərin sürüsünə müxtəlif şəraitdə bir qədər əvvəl yazılmış bir neçə fərqli tipli xəbərdarlıq çağırışı yazısını dinlətmişlər. Bütün hallarda fillərin reaksiyası eyni cür olmuşdur.

(ç) Eksperimentlərdə iştirak edən fil sürüsünə fillərin digər qrupunun xəbərdarlıq çağırışınının yazısını qoşmuşlar. Yazını qoşan kimi fillər qaçmış və özləri də analoji səslər verməyə başlamışlar.

(d) Yazıların təhlili göstərmişdir ki, fillərin xəbərdarlıq çağırışından duyduqları təhlükə nə qədər sürətlə yaxınlaşarsa, bir o qədər uca səsli və intensiv olur.

**33.** Müddəalar verilir:

I. Mənim kitabxanamda bəzi kitablar fransız dilindədir.

II. Mənim dostum heç bir fransızdilli kitabı oxumamışdır.

III. Mənim dostum kitabxanamdakı bütün kitabları oxumuşdur.

*Aşağıda sadalananlardan bu müddəalar arasında münasibətə görə hansı mülahizə **səhvdir**?*

(a) I və II müddəalardan III-nün inkarı.

(b) II və III müddəalardan I-nin inkarı.

(c) I və III müddəalardan II-nin inkarı.

(ç) Onların hər biri qalan ikisindənn irəli gəlir.

(d) Onlardan heç biri qalan ikisindən irəli gəlmir.

**34.** Verilir:

- Əgər qlobal istiləşmə bu sürətlə davam edərsə, Yer kürəsi üstündəki buzlaqlar sürətlə əriyəcəkdir.
- Əgər Yer kürəsi üstündəki buzlaqlar sürətlə əriyərsə bir çox növlər həyat mühitindən kənarda qalacaqdır.

*Aşağıda sadalananlardan hansı bu müddəalardan **irəli gəlir**?*

(a) Qlobal istiləşmə bu sürətlə davam etməyəcək yaxud bir çox növlər həyat mühitindən kənarda qalmayacaqdır.

(b) Əgər Yer kürəsi üzərində mövcud olan buzlaqlar sürətlə əriməzsə, bir çox növlərin həyat mühiti saxlanacaqdır.

(c) Qlobal istiləşmə bu sürətlə davam etməyəcək yaxud bir çox növlər həyat mühitindən kənarda qalacaqdır.

(ç) Qlobal istiləşmə həmin sürətlə davam edəcək yaxud bir çox növlər həyat mühitindən kənarda qalacaqdır.

(d) Qlobal istiləşmə həmin sürətlə davam etməsə, bir çox növlərin həyat mühiti saxlanacaqdır.

## Oxunmuş mətnin düşünülməsi

*Mətni diqqətlə oxuyun və düşünün. Hər sualın ehtimal olunan cavablarından verilən mətnə görə düzgün variantı seçin.*

*Bu və ya digər sualla tanış olduqdan sonra suala cavab vermək üçün mətnə qayıtmaq, müvafiq parçanı yenidən oxumaq və suala keçmək lazım gələ bilər. Bunu mətnin eləcə də hər sualın sonunda verilmiş müvafiq qeydi "basmaqla" asanlaşdıra bilərsiniz.*

i Hələ 20 il bundan əvvəl tədqiqatçıların əksəriyyəti düşünürdü ki, neolit inqilabının vaxtını, yerini və müddətini bilirdilər, hansı ki, əkinçilərin, ovçuların-azuqə toplayanların və parçalanmış köçəri qrupların bir yerdə məskən salmalarının əsasını qoydu. Əkinçi insanlar daha böyük qrup halında birgə yaşaya bilirdilər. Çoxadamlı cəmiyyətdə isə ideyalarla asanlıqla mübadilə etmək olurdu. Texnoloji yaxud sosial innovasiyaların sürəti artdı. Hələ qeyri-sabit qrupları birləşdirmək üçün mütəşəkkil dinin yaranması qaçılmaz oldu.

ii Son illərdə isə bir çox yeni kəşflər, ilk növbədə Göbəkli təpə kompleksinin tədqiqatının nəticələri bir çox alimləri öz fikirlərinə yenidən baxmağa məcbur etdi. Göbəkli təpə kompleksi Cənubi Türkiyədə Dəclə və Fərat çaylarının başlanğıcında yerləşir. Onu təqribən y.e.ə. 9600-8200-cü illərdə tikmişlər. Burada dairə halında bir neçə on min daşdan iri sütun ucaldılmışdır. Naxışlı əhəng daşının sütunları üzərində şirlərin, donuzların, durnaların, əqrəblərin və tülkülərin barelyefləri təsvir olunmuşdur. Göbəkli təpənin tədqiqinə 1994-cü ildə alman alimi Klaus Şmidt başlamışdır. O, sütunların ilk dairəsini aşkar etmişdir. Geomaqnit tədqiqatı yerin altından daha 20 dairə aşkar etmişdir. Ən böyük, 16 tonluq sütunun hündürlüyü 5,4 metrdir. Dairələr müəyyən qayda üzrə yerləşdirilmişdir. Əhəng daşının hər sütununun nəhəng T forması vardır.

Şmidtin fikrincə, T sütunları insanın “stilləşdirilmiş” iii
təsviridir – bəzi sütunun “çiyinlərindən” zərif hazırlanmış barmaqları olan əllər uzanır, onlar “belə dolanmış qurşağa doğru” uzanır. Daşların üzü “görüş yaxud rəqs zamanı” olduğu kimi, mərkəzə doğru yönəldilir. Yəqin ki, bu dini mərasimi (Allaha ibadəti) əks etdirir. Bəzi fikirlərə əsasən, barelyefdəki heyvanlar sütun halında təsvir olunmuş fiqurları o dövrün varlıqlarının qüdrətli simvollarını qoruyurdular. Göbəkli təpədə hər hansı yaşayış məntəqəsinin əlamətləri – arpa yaxud əkinçilik izləri aşkar edilməmişdir. Göbəkli təpə ibadət yeri idi. O, həmçinin Disneylendin neolit variantı da ola bilərdi. Burada bayramlar

**Suallara keçid:** 35 36 37 38 39 40

1 2 3 4 5 6 7 8 9 10 11 12 13 14 15 16 17 18 19 20 21 22 23 24 25 26 27 28 29 30 31 32 33 34 35 36 37 38 39 40

keçirilirdi. Müəyyən növlü sosial təşkilat həm məbədin tikintisi, həm də oraya toplanmış xalqın idarə olunması üçün zəruri idi. Bu məbədi azuqə toplayanlar tikmişlər. Şmidtin fikrincə, Göbəkli təpə bizə sivilizasiyanın inkişafının döndərilmiş ssenarisini təklif edir: azuqə toplayanlar tərəfindən kütləvi məbədin tikintisi sübut edir ki, bəlkə də din sivilizasiyanın inkişafından əvvəl meydana gəlmişdir.

iv Fransız arxeoloqu Jak Koven şüurda baş vermiş həmin konseptual dəyişiklikləri "simvolların inqilabı" adlandırır ki, bu da insanlara Allahları fiziki aləmdən kənarda mövcud olan insanabənzər ali varlıqlar kimi təsəvvür etmə imkanı verir. Şmidt Göbəkli təpəni Kovenin baxışlarının illüstrasiyası hesab edir. O, "T sütunlarının məhz başqa aləmin sakinlərinin simvollarıdır", - deyir və nəticə çıxarır: "Sivilizasiyanın başlanğıcından bugünə kimi biz hər şeyi təbiətin qüvvələri hesab edirdik. İndi isə zənnimcə, sivilizasiya insanın şüurunun məhsuludur". Ancaq bəzi alimlər sivilizasiyanın inkişafının ümumi ssenarisinin tapılmasına cəhd göstərilməsinə şübhə ilə baxır. Sivilizasiyanın inkişafının əsası bir yerdə əkinçilik, digər yerdə incəsənət və din yaxud əhalinin artması və sosial təşkilat ola bilərdi.

**Suallara keçid:** 35 36 37 38 39 40

**35.** I və II abzaslar arasında hansı əlaqə vardır?

(a) II abzasda təsvir olunan kəşf insanın inkişaf yolunun qəbul edildiyi variant üçün I abzasda təklif olunan əlavə dəlil funksiyasını yerinə yetirir.

(b) II abzasda o işarə edilir ki, onda təsvir olunmuş nümunə bəlkə də insanın inkişafının I abzasda verilmiş ənənəvi ssenarisini şübhə altında qoysun.

(c) II abzasda təklif olunan nümunə neolit inqilabı haqqında I abzasda inkişaf etdirilən fikri tamamilə rədd edir.

(ç) II abzasda I abzasda formalaşdırılmış əkinçiliyin inkişafı haqqında nəzəriyyənin alternativ variantı verilmişdir.

Mətinin I səhifəsinə qayıdış

Mətnin II səhifəsinə qayıdış

**36**. T sütunlarının insanın stilləşdirilmiş təsviri olduğunu Klaus Şmidt nəyin əsasında ehtimal edir?

(a) T sütunları dairə halında yerləşmişdir, daşlar üzü mərkəzə doğru durur və ibadətçilərin təsvirlərini əks etdirir.

(b) Əhəng daşından olan sütunlar nəhəng T formalı hərflərdir və naxışla bəzədilmişdir; bu sütunları azuqə toplayanlar ucaltmışlar.

(c) T-sütunlarında qurşaqdan əl barmaqları uzadılmışdır, sütunlar isə bir-birinə doğru elə yönəldilmişdir ki, sanki insanlar rəqs edirlər.

(ç) T-sütunlarının insan forması vardır, onlardan hər birinin başı, çiyinləri və əlləri vardır; insanların görüş zamanı olduğu kimi bir-birilərinə "baxırlar".

Mətinin I səhifəsinə qayıdış

Mətnin II səhifəsinə qayıdış

**1 2 3 4 5 6 7 8 9 10 11 12 13 14 15 16 17 18 19 20 21 22 23 24 25 26 27 28 29 30 31 32 33 34 35 36 37 38 39 40**

**37**. Aşağıda sadalananlardan hansı fikir yaxud fakt Göbəkli təpənın **bilavasitə təyinatını göstərmir**?

(a) Sütunların yerləşməsi Allaha ibadət edən mərasim rəqsini əks etdirə bilər.

(b) Göbəkli təpə Disneylendin neolit variantı da ola bilərdi.

(c) Arxeoloqlar Göbəkli təpədə yaşayış məntəqəsinin heç bir əlamətini – arpanı yaxud əkinçiliyin izlərini tapa bilməmişlər.

(ç) Barelyefdə qazılmış heyvanlar yəqin ki, sütun halında əks etdirilən fiqurları – o dünyanın varlıqlarının qüdrətli simvollarını qoruyurdular.

Mətinin I səhifəsinə qayıdış

Mətnin II səhifəsinə qayıdış

**38**. Şmidt Göbəkli təpəyə Kovenin nəzəriyyəsinin illüstrasiyası kimi baxır, çünki:

(a) Bu kompleksin tədqiqi zamanı tapılmış bəzi artefakt sübut edir ki, bu dövrün adamları artıq insan simasında allahları təsəvvür edir və onları simvol kimi əks etdirməyə çalışırdı.

(b) Bu nəhəng məbədin tədqiqi zamanı əldə edilmiş material sübut edir ki, neolit dövründə bu bölgədə yaşayan insan qrupları sivilizasiyanın inkişafını ümumi ssenari ilə idarə edirdi.

(c) Bu kompleksi tikmək üçün texnoloji bilik və qabiliyyət lazım idi, lakin ovçu və azuqə toplayan cəmiyyətdə bunlar yox idi.

(ç) Göbəkli təpənin mövcudluğu sivilizasiyanın inkişafı haqqında kök salmış fikirlər üçün yeni sübutlar verir.

Mətinin I səhifəsinə qayıdış

Mətnin II səhifəsinə qayıdış

**39**. Aşağıda verilən fikirlərdən sivilizasiyanın inkişafına səbəb olan amillər haqqında hansı fikirlər mətnin son cümlələrində əks etdirilməmişdir?

(a) Köçəri qrupların bir yerdə məskunlaşması və əkinçiliyin inkişafı texnoloji və sosial innovasiyaların yaranmasına imkan verdi ki, burada da sivilizasiyanın inkişafı nəzərdə tutulur.

(b) İlahi qüvvəyə insanın pərəstişi və onun görmək istədiklərinə can atması sivilizasiyaya başlanğıc verə bilərdi.

(c) Ətraf mühitin dəyişikliyi sivilizasiyanın yüksəlməsinə təkan verdi: buzlaşma başa çatdıqdan sonra insanlar yeni əraziləri mənimsəmə imkanı qazandı ki, bu da sivilizasiyanın yeni ocaqlarının yaranmasına səbəb oldu.

(ç) İnsanların böyük qruplar halında birgəyaşayışı onların arasında bilik və ideyaların yayılmasına, həmçinin yeni sosial təsisatların formalaşmasına imkan yaradır ki, bu da sivilizasiyanın inkişafının ilkin şərtidir.

Mətinin I səhifəsinə qayıdış

Mətnin II səhifəsinə qayıdış

**40**. Sizə Göbəkli təpə bölgəsi ilə bağlı əlavə məlumat təqdim edirik:

I – “**<u>Məhsuldar aypara</u>**” Qəzzanın şimal-şərqindən dönüb cənubi Türkiyəyə doğru gedən və sonra İrağa doğru yönələn qövs formalı ərazı neolit inqilabının mərkəzi idi. Y. e. ə. 6000-ci ildə azuqə toplayanlardan əkinçilərədək transformasiya mərhələsi burada demək olar ki, başa çatmışdır. Göbəkli təpə bu bölgənin şimal hissəsindədir.

II – Bitkilərin mədəniləşdirilməsi və heyvanların əhliləşmiş növlərinin yetişdirilməsinin ilk sübutu **<u>Nuvalu Çoridən</u>** gəlir. Bu Göbəkli təpədən 30 km məsafədə yaşayış məskənidir.

III – Neolit yaşayış məntəqəsi Göbəkli təpədən 160 km məsafədə yerləşir. Onun yaxınlığında da T formalı kişik ölçülü sütunlar üzərində heyvanlar əks etdirilmişdir.

Aşağıda sadalananlardan hansı ehtimal mətnə və **<u>hər üç</u>** məlumata əsaslanır?

(a) Zaman ərzində Göbəkli təpə məbədində işləyən yaxud mərasimlərdə toplanmış adamlar üçün kifayət qədər yem tapmaq ehtiyacı yarandı. Məhz bu, yabanı bitkilərin intensiv surətdə yetişdirilməsinə və heyvanların əhliləşdirilməsinə təkan verdi.

(b) Göbəkli təpə neolit inqilabının ocaqlarından biri ola bilər, ümumi dində birləşmiş cəmiyyət məhz onun ətrafında yaranmışdır ki, bunu da arxitekturanın yaxud heykəltəraşlığın müəyyən üslubu səciyyələndirir.

(c) Göbəkli təpə məbədini ucaldarkən artıq bu bölgədə bitkilərin yetişdirilməsi və heyvanların əhliləşdirilməsi təcrübəsi qazanılmışdır; burada da neolit yaşayış məntəqələrinin izi aşkar edilə bilər.

(ç) Göbəkli təpə sivilizasiyanın insan şüurunun bəhrəsi olduğunu sübut edir. Bölgədə aşkar edilmiş məbəd komplekslərinin incəsənət üslubu bundan xəbər verir.

Mətinin I səhifəsinə qayıdış
Mətnin II səhifəsinə qayıdış

1 2 3 4 5 6 7 8 9 10 11 12 13 14 15 16 17 18 19 20 21 22 23 24 25 26 27 28 29 30 31 32 33 34 35 36 37 38 39 40